

# Leyləyin intiqamı

Qəşəm İsabəyli

84(5Aze)
И
İ 74

Redaktoru və
ön sözün müəllifi
**Şəfəq Nasir**
filologiya üzrə fəlsəfə doktoru

Dizayner
**Sevər Şovqatova**

**Q.İsabəyli**
(qeshem_isabeyli@mail.ru)
**Leyləyin intiqamı**
(şeirlər, hekayələr, nağıllar)
**Bakı – Şirvannəşr – 2015**
128 səh.

Özünəməxsus yaradıcılıq üslubu ilə seçilən, Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs gətirən, adı "Cin" nağıl-povestiylə Beynəlxalq Andersen Şərəf Siyahısına düşən (Mexiko-2014) Q.İsabəylinin, yuxarıyaşlı məktəblilərin bədii ədəbiyyat sarıdan korluq çəkdiyi vaxtda oxucuların mühakiməsinə verdiyi "Leyləyin intiqamı" kitabında son illərdə qələmə aldığı şeirləri, hekayələri və nağılları toplanmışdır.

**83.3. Az (2)**
**İ ------------------**
**054**

**ISBN 978-9952-8273-0-9**

**© Q.İsabəyli, 2015**

**Qəşəm İsabəyli**

# *Leyləyin intiqamı*

**Bakı**
**Şirvannəşr**
**2015**

# Leyləyin intiqamı

–Ay bala, inşallah, böyüyəndə nə olacaqsan?

–Quş olaydım kaş!

–Quş?! Nə quş?! – Kişi mat-mat üzümə baxdı.

–Köçəri.

–Köçəri?

–Uçub dünyanı gəzərəm.

–Tutaq ki, dünyanı gəzdin, sonra nə olsun?

–Sonra da ürəyim istəyən yerdə yuva qoyub, yaşayardım.

–Ay kişi, – nənəm idi,– bax ey, qonaqlarımız gəlib.

Babam "hə-hü" eləyincə özümü atdım çölə; nənəm sağ əlini sol gözünə günlük eləyib, göyə baxırdı.

–Hanı, ay nənə!?

–Odur ey, babanın qardaşının başına bax!

Babam dünyaya gələndə atası onun adına bir qovaq ağacı əkir. Babam da ağlı kəsəndən bu ağaca "qardaşım" deyir.

–Baho!.. – Babam idi. – Ətcəbalalar böyüyüb ki, maşallah! Xoş gəlmisiniz! Xoş gəlmisiniz! Bıy... bəs atanız, bəs ananız?! Cənnətməkan olsunlar! Qəm eləməyin, onlardan da yaxşı baxacam sizə! Çox sağ olun ki, ana yurda qayıtmısınız! Nahaq deməyiblər, quşa da öz vətəni!

–Quşa nə vətən, ay baba?

–Leyləklər insan deyil ki, onun-bunun yuvasına girib yaşasın.

***

Cavan leyləklər günlərlə çör-çöp daşıyıb, köhnə yuvanı sahmana saldılar. Sonra da ana leylək sinəsi üstə düşdü; haçan yumurtladı, haçan üstündə yatdı?! Bir də gördük, ağacın başını civilti bürüyüb; ana leyləyin yan-yörəsində basdırıqdı; açıla qalmış sarı-sarı dimdiklər, balaca-balaca daz başlar səyriyir.

Leyləklər çöldən, çəməndən dimdiyi dolu qayıdanda ətcəbalaların ağızları gedərdi qulaqlarının dibinə: ci... ci... ci...

Hərəsinə də bir udum çata-çatmaya. Bir dəfə isə gözüm kəlləmə çıxdı; leyləklər ağacın

başında heç nə olmamış kimi balalarını yemləyir, ağacın dibində isə bir cüt ətcəbala tir-tir titrəyir, civ-civ civildəşirdi.

–Ay baba, ay baba! Bax ey... it-pişik yeyəcək...

–Leylək ağıllı quşdu, elə ki, görür, yem çatdıra bilməyəcək, balaları acından qırılacaq, onda bir-ikisini atır yuvadan ki, qalanını böyüdə bilsin.

–Ay baba, yazıqdı axı bunlar!

–Biz demokratik ölkənin vətəndaşı sayılırıq, balası, leyləklərin daxili işlərinə qarışa bilmərik, yoxsa Birləşmiş Millətlər Təşkilatına yazarlar bizdən!

***

Bir günorta nahar elədiyimiz yerdə, nəsə "fıss"adan həyətə düşdü, sonra da şaqqıltı eşidildi, ətrafa gur işıq yayıldı. Eşiyə qaçdıq; babamın qardaşı – qoca qovaq şaqqalanıb, alışıb yanırdı. Leylək yuvası da həyətin bir küncündə ağzı üstə düşüb, papaq kimi yastılanıb qalmışdı. Ana leyləklə balaları hərəsi bir tərəfdə, dimdiyini açıb yumurdu. Bir azdan titrəyib, dartınıb, donub qaldılar.

–Qardaşımı mərmiylə vurdular. Deməli, indi də növbə mənimdi. – Babam beli götürüb,

çəpərin ayağında bir çala qazdı; ağlaya - ağlaya leylələri basdırdı. Nənəm də ovunmaq bilmirdiı:

–Bu yaxşı əlamət deyil, ay kişi! Başımıza bir çarə qılmalıyıq!

Qonşumuz Arakel baba tələsik həyətə girdi:

–Ay Həsən, indi nə fikirləşirsən?! Bu gün qardaşını vurublar, sabah da səni öldürəcəklər!

–Deyirsən, torpağı qoyub, qaçaq, ay kirvə?! Hara gedək?!

–Dünyada o qədər rahat yer var. Mən öz payıma Ermənistana gedən deyiləm. Rusiyaya – qohumlarımın yanına nə gəlib?! Həsən, biz günümüzü görüb, dövranımızı sürmüşük, bu uşaq yazıqdı, yığışın gedin Bakıya.

–Öz torpağımdan köçüm, deyirsən, ay kirvə?!

–Müharibə nə bilir öz torpağındı, özgənin torpağıdı. O, bir şey bilir, onun da adı – ölümdü!

–Kürdəmirin Qəhrmanbəyli kəndindən Məlik Mahmud bəy adlı qonağımız olub. Sovet hökuməti gələndə deyirlər, a bəy, varlılar İrana çıxıb gedir, bolşeviklər səni sağ qoymayacaq, nə gözləyirsən?! Bəy deyir, torpaq kişinin arvadıdı, adam da namusunu atıb gedər!?

–Axırı necə oldu?

–Yazıq kişini əvvəl dama salıblar, sonra da gülləylə vurublar ki, bəs qaçırmış!

–Day nə istəyirsən?!

***

İki gün sonra Arakel babagilin həyətinə yekə bir yük maşını gəldi. Nələri vardı yığdılar içinə. Sonra da Süsən nənə, Sergey əmi, Sara xala, Arakel baba, nəvəsi Hamo bizimlə xudahafizləşib, ağlaya-ağlaya maşına mindilər...

Babamla nənəmin də yanaqları boyu göz yaşları axırdı. Zarafat deyil, əlli illik qonşularını itirirdilər. Mən də Hamonun getməyinə pis olmuşdum. Day kimlə oynayacaqdım?! Maşının dalıyca bir xeyli qaçdım:

–Məktub yazarsan, Hamo!

–Yazacam, amma kim gətirəcək, ay Elat?!

–Poçtalyon.

–Poçt...

Maşın taqqa-tuqla dərəyə enib, gözdən itdi.

***

Ata leylək düz üç gün həyətin başına fırlandı. Tez-tez yanıb kösövə dönmüş qovaq ağacına düşür, döyükmüş gözləriylə ətrafına baxır, sonra yenidən havaya qalxırdı.

Gündən-günə yaxınlaşan top-tüfəng səsindən qurd-quş köçüb getmişdi. Allahın sərçə-sığırçını da çıxmışdı kənddən. Leylək isə tək-tən-

ha qalmışdı. Nənəm gündə yüz dəfə azından əlinin dalıyla gözlərini silirdi:

–Yazıq quş!

–Ay nənə, niyə uçub getmir?!

–Hara getsin, ay bala?

–Hardan gəlmişdi, ora.

–Kimi vardısa, burdaydı, onları da biz öldürdük!

–Biz niyə?!

–İnsan deyilik?!

–Təzədən evlənsin də?!

–İnsandı bəyəm?!

***

Bir səhər nənəm təndir qalayıb, çörək bişirməyə hazırlaşırdı. Leylək də hardansa uçub gəldi. Alov təndirin ağzından gur çıxıb başladı sağa-sola dartınıb çırpınmağa. Nənəm evə getdi ki, xəmir teştini gətirsin. Leylək alova baxıb, qorxmuş kimi dik qalxdı. Düz təndir tüstüsünün yuxarı həddinə qədər uçub, birdən dayandı; qanadlarını büküb, təpəsi üstə özünü buraxdı aşağı; alovu yarıb, təndirin içinə düşdü.

–Ay nənə-ə-ə! – Səsimin həyəcanına nənəm özünü çölə atdı:

–Bıy, başıma xeyir, sənə nə olub, ay bala, ağ-appaq ağarmısan?!

–Ay nənə, leylək özünü təndirə atdı.

–Bıy, başına daş düşən canım! – Nənəm vedrəni qapıb, hovuzun başına qaçdı. Üç-dörd dəfədən sonra təndiri söndürdü. Dırmıqla yanmış leyləyi çıxarıb otun üstünə qoydu. Quş ağzını bircə dəfə açıb-yumdu.

Babam da gəlib çıxdı. Bir xeyli ölü leyləyə baxdı:

–Halal olsun!

–"Halal olsun"?! Özünü öldürməyə?!

–Sədaqətinə?!

***

Müharibə əjdaha kimi cəhəngini ayırmışdı; az qala gündə onlarla insanı kamına çəkirdi. Leyləyin faciəsi də yavaş-yavaş süfrələrimizin başından yığışırdı. Artıq qışın həlim vaxtıydı; evdən çox, çöldə olurduq. Bir axşam da şam eləyib, AzTv-də xəbərləri dinləyib, yerimizə girdik. Səhərə yaxın dolu səsinə gözlərimi açdım:

–Baba-a-a?!

–Dur, bala!

–Nə yaman yağır!

–Dur, bala, düşmən üstümüzü alıb. Evimizi güllələyirlər.

Dik atıldım. Nənəm ora-bura vurnuxurdu.

–A kişi, Arakel kirvə köçəndə köçsəydik, indi bu günə qalmazdıq.

–Həyətə düşürəm, gözünüz məndə olsun.– Babam çölə çıxıb, beş addım getməmişdi ki, diksindi; əllərini qabağa uzadıb, iki addım ata-atmaya, sinəsi qovağa söykəndi. Əlinin zəif işarəsiylə "gəlməyin!" dedi. Sonra sürüşüb, yanı üstə düşdü; boynu əyildi, üzü dirəndi ağacın gövdəsinə. Nənəm içini çəkdi:

–Oxx! Ürəyim parçalandı!

Maşın səsinə başımı qaldıranda Xankəndi sarıdan ağ bir "Niva"nın qapımıza tərəf gəldiyini gördüm. Nənəm qolumdan çəkdi; dal qapıdan bağçaya endik.

–Bəs babam?!

–Ay bala... – həyət qapısı tərəfdən avtomatın aramsız taqqıltısı nənəmin sözünü ağzında qoydu.

***

Bütün gecəni yol getdik. Əl-ayağımız, pal-paltarımız cırıq-cırıq olmuşdu. Səhərə yaxın sağdan-soldan dəstə-dəstə adamlar da gəlib bizə qoşulurdu.

–Allah ermənilərin evini yıxsın! Xocalını da viran qoydular!

–Erməni bəhanədi, bizi bir-birimizə qırdıran rus köpəyoğludu!

–Özümüzünkülərdən niyə demirsiniz?! Bizi başsız qoyublar!

–Molla Nəsrəddinin sözü olmasın, belə çıxır ki, oğruda taxsır yoxdu, günahkar eşşəkdi ki, onu yaxına qoyub!

–A kişi, Allah-bəndə sözü danışın!

Birdən göyə fişəng atdılar; ətraf ağ-appaq süd kimi oldu. Nənəm əlimdən tutub, məni kolun dibinə çəkdi. Bir azdan hər tərəf qaranlıqlaşdı.

Dağlıq Qarabağla Aran Qarabağın sərhəddində yerləşən Ağdam şəhərinə güclə özümüzü çatdırdıq. Bizi məktəbə gətirdilər:

–Üstünə "Beşinci sinif" yazılan otaq sizindi. Bu gecə birtəhər keçinin, sabah Bakıdan yorğan-döşək göndərəcəklər.

Bir gün də Ağdam işğal olundu. Biz də Bakıya çıxıb getdik; gecəqondularından birində balaca bir dam qaraldıb, içinə köçdük.

***

Hər axşam başımı yastığa qoyan kimi qovaq ağacı yuxuma gəlir, yuvası dağılıb, balalarıyla birgə həlak olmuş ana leylək yuxuma gəlir, özünü təndirin alovuna çırpıb, diri-diri alışıb

yanan ata leylək yuxuma gəlir. Babamın ağac gövdəsinə dirənən sifəti... bir də erməni qonşularımız:

–Ay Həsən, gəl köç bu xarabadan.

–Hara köçüm, ay kirvə? Torpaq kişinin arvadıdı. Adam da namusunu atıb gedər!?

# "Aclıq" dərsi

## 1.

Çılpaq divarlar idi, taxta döşəmə idi, cındır palaz idi, astarı yamaqlı yorğan-döşək idi, bir də pişik balası kimi büzüşüb yatmış oğlan uşağı. Bu uşağın da özündən-sözündən çox-çox böyük adı vardı – Elat.

–Ana-a!.. – Elat yuxudan ayılan kimi başını çevirib gördü ki, otaqda tək qalıb. Yavaşca yerindən qalxdı; paltarını geyib, dəhlizə keçdi. Anası əli qoynunda pəncərənin qabağında dayanmışdı.

–Sabahın xeyir, ana-a-a...

–Allah sabahını xeyir eləsin, qurban olum! –Ana Elatı bağrına basıb, üzündən öpdü. –Necəsən, ay bala?!

–Ölürəm...

–Səni istəməyənlər ölsün, dədəm qurban, nə olub?!

–Sancıdan qarnım doğranır.

–Özünü darıxdırma, indi nanə-cövhərlə ovuşduraram, keçib gedər!

–Çayımız var?!

–Dünəndən qalmadı.

–Olsun da?!

–Buz kimidi, ay bala!

–Qızdır da...

–Qaz balonumuz boşalıb, işığımız da yanmır. Atan bu gün qonşudan pul alıb, borcumuzu verəcək. Məktəbdən gələndə isti çay içərsən, Allah qoysa!

–Qəndimiz bəs?!

–Döşəkağına büküb bir balon su saxlamışam ki, isinsin. Bir stəkana tök, birdən içmə ha, soyuqdu, boğazın gələr, ağzında saxla, qurtum-qurtum ud.

–Ay ana, bura niyə gəldik, ey! Kəndimiz hayıf deyildi?! Heç olmasa yaşamağa isti evimiz vardı, doyunca yeməyə çörəyimiz vardı, mal-qaramız vardı, işığımız... qazımız... suyumuz... Burda nə var, hamısı pulnandı. Bizim də pulumuz yox!

–Ay bala, orda qala bilərdik?! Özümüzü öldürüb, iraq səndən, iraq səndən, meyitimizi də qurda-quşa yem eləyərdilər. Allaha şükür ki, sağ-salamat bura gəlib çıxa bilmişik!

–Burda belə yaşamaqdansa, orda elə ölmək yaxşıydı, ay ana!

–Elə demə, qurban olum, Allaha acıq gedər! Niyə yadına salmırsan bəs, orda bir həyətdə gör neçə nəfər idik?! Baban hanı, əmilərin hanı, dayıların hanı, nənən hanı?! Heç bilmirik qəbrləri də hardadı! Bəs böyük qardaşın Səxavət?!.. – Ana donunun ətəyini gözlərinə apardı. – Ciyərimə dağ basdın, ay şəhid balam! – Hönkürdü...

***

Elat kitab-dəftərini sellafon torbaya qoyub, dalına atdı.

–Piyada getmə, qurban olum, atan yol pulu verib, gələ, avtobusa min.

–İstəmirəm, ay ana!

–Məktəb uzaqdı, ürəyin üzülər, ana qurban, pulu götür!

–Kənddə məktəbə avtobusla gedirdim?! Pulu ver atama, qoy piyada getməsin. Ondan başqa qazananımız yoxdu. Getdim, sağlıqla qal.

–Allah amanında!

Elat gözdən itənəcən anası dalıyca baxdı: "Boğazımızdan artırıb, yazıq uşağa bir çanta da ala bilmirik!".

***

Elat bu gün də məktəbə ac gəlmişdi. Arada qarnı curuldayanda bərkdən öskürürdü ki, eşi-

dən olmasın. Ancaq öz səsi öz qulağını batırırdı. Uşaqlar yer-yerdən pıqqıldaşanda qıpqırmızı qızarırdı. Hələ söz atan da vardı:

–Qurbağa – qur-qur!

Müəllimə sinfə girən kimi dərsə başladı:

–Bugünkü mövzumuzun adı “Aclıq”dı.

Şagirdlər əvvəlcə bir-birinə, sonra da müəlliməyə baxdılar:

–Aclıq?!

–Bəli.

Uşaqlar az qala xorla:

–Mmm... – elədilər.

–Kim aclıq haqqında danışa bilər?

Şagirdlər yenidən bir-birinə sarı çevrilib, çiyinlərini çəkdilər. Arxa cərgədən sünbül kimi nazik bir əl qalxdı.

–Olar mən danışım, müəllimə?!

–Ela-a-a-t?! Buyur.

–Əgər ana qab götürüb qonşudan un almağa gedirsə, buna deyirlər aclıq. Üç cür aclıq olur; zəif aclıq, əsl aclıq, ölüm aclığı. Hiss eləyəndə ki, ürəyin yemək istəyir, bu olur zəif aclıq. Elə ki, evi axtarırsan, ağzına qoymağa bir tikə çörək tapmırsan, başlayır qarnın curuldamağa. Bu, əsl aclıq sayılır. Bir də var, ən böyük aclıq – ölüm aclığı.

–Ölüm aclığı?! – Müəllimə qaşlarını çatdı.

–Bəli.

–O necə olur?! – Şagirdlər idi.

–Fasiləsiz mədə sancısı, qarın curultusu, baş ağrısı, gözlərin qabağına duman çökməsi, ağızdan qara su açılması, başgicəllənməsi və ögümək ölüm aclığının əlamətləri sayılır...

Uşaqların gözləri bərələ qalmışdı:

–Biz bunları bilmirdik, müəllimə!

–Mən də çox şeyi bilmirəmmiş, demə!

Xocalı qırğınından canlarını qurtarıb Bakının gecəqondularından birinə sığınan Qarabağ qaçqının 10 yaşlı oğlu Elat axır ki, müəllimədən ilk "əla"sını aldı.

# Toxluq

Şəm-Şəm evlənmək həvəsinə düşmüşdü. Həvəsə düşməklə evlənmək arasında atla ot qədər ara var. Əvvəlcə gözü tutan qız... özü də şəhərdə... heç ağlına batmırdı. Amma çətinliyə düşəndə Babası deyərdi:

–Sən saydığını say, gör Baba nə sayır.

Baba da  bir gün götürüb Şəm-Şəmi Xəlsəyə apardı. Xəlsə haradı? Şəm-Şəmgilin də-də-baba yurdu. Demə, həm ziyarət, həm ticarət olacaqmış bu.

Saçları sarı, gözləri mavi, incə-mincə bir qız çıxdı qarşılarına. Şəm-Şəm istədi qıza baxmasın. Axı o, şəhərliydi; özünü ağır aparmalıydı. Bacarmaq var, bacarmaq var... bacarmadı. Baxmaq var, baxmaq var... elə baxmağını gördü Şəm-Şəm:

–Baba?!

–Can, baba!

–Ba-ba?!

–Bu qızın elçiliyini eləyim, deyirsən?!

–Ay səni, baba... Nə bildin?!...

–Xəbərçilər xəbər verdi!

–Xəbərçilər?! Sən, mən... üçüncü kim var?!

–Gözlərin!

–A səni, baba...

Sazlı-sözlü, zurnalı-balabanlı toy elədilər, gəlin gətirdilər; Mavigözlə Şəm-Şəm oldu bağrıbadaş. Elə oynadılar, elə güldülər, "nə bağ bildi, nə bağban"...

Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə hardan gəldi, hardan keçdi... Bircə onu bildilər ki, ata sevinir, ana sevinir, Baba day hamıdan çox sevinirdi...

–İnqəəə...

Bir oğlan idi Ay parçası kimi. Amma bu oğlan hələ çağaydı. Bir ağlamaq ağladı, bir ağlamaq ağladı...

–Bəyim qız, uşaq acıb! – Şəm-Şəm idi.

Ağzına döş verdilər – marça-març əmdi.

Su verdilər – horta-hort içdi.

layla çaldılar – mışıl-mışıl yatdı.

Əmdi... içdi...

yatdı... böyüdü...

Bələkdən çıxdı, beşikdən düşdü; şalvar geydi, pencək taxdı, dil açdı.

Ağladı...

– Ye, bala!

Güldü...

– Ye, bala!

Oynayıb yoruldu...

–Ye, bala!

Səhər bilmədilər, axşam bilmədilər, nahar bilmədilər, şam bilmədilər. Əlləri ağzında oldu – balaca bala sünbül kimi boy atıdı; cana verdi, yana verdi, qarına verdi, qana verdi...

Bir gün də...

Nahara çağırdılar.

–Yemirəm!

Şama çağırdılar.

–Yemirəm!

Düşdülər əl-ayağa:

–Uşaq yeməkdən qalıb, ay həkim!

–Niyə?!

–Ona görə çağırmışıq da sizi!

–Bayıra getməyi necədi?

–Əla.

–Eləyibmi bu gün?

–Əlbəttə!

–Saxlamısınızmı?!

–Əlbəttə!

–Sizdən yaxşı muzey işçisi olarmış.

Ağızlar qulaqların dibinə getdi:

–Ha... ha... ha...

–Buyursun əlahəzrət.

Bir anda qarşoq hörmətə mindi. Həkim bu gözəllər gözəlinin içinə boylandı, çevrilib anaya

baxdı, dönüb ataya baxdı, Babaya baxmağı daha vacib bildi.

–Bu, iki uşağındı?

–Xeyr, xeyr, nə danışırsınız?!

Həkim belini dikəldib, mənalı-mənalı ananı süzdü, acıqlı-acıqlı atanı süzdü, məzəmmət babaya düşdü:

–Hər şey Allahlıq olsa da, bu... cənab ə... yeməklədi.

# Alim

Nənəm öləndən sonra atam ha yalvardı, ha yapışdı, Babam  evlənmədi:

–Bəlkə yerinizi dar eləyirəm?!

–Qoca adamsan, qulaq yoldaşı olardı sənə!

–Qulaq yoldaşıma nə gəlib!

Atam çaşıb qaldı. Babam mənə göz vurdu:

–Bu boyda bağım var, bu qədər ağaclarım var, bunlardan yaxşı qulaq yoldaşı?!

Atam bir də bu söhbəti təzələmədi.

Başladıq əvvəlki kimi bir damın altında yaşamağa. Gəl ki, anamın biş-düşündən bir qaşıq da olsun Babam dilinə vurmazdı.

–Ay kişi, bizdən iyrənirsən, nədi?! – Bir dəfə atam narazılıq elədi.

–İt-pişiyəm mən?! – Babam acıqlandı.

–İrağ olsun, ay dədə, bu nə sözdü?!

–Gərək hər kəs öz əməyinin bəhrəsini yesin, bala! Onda yediyi də canına çıxar. Bir stəkan çayı dəmləyə bilməyən, bir qab xörəyi bişirə bilməyən əli qoyaram baltanın altına!

Özü demişkən köhnə kişilərdən olan Babam səhərin gözü açılmamışdan gözlərini açardı.

Bir axşam da, kişinin sözü olmasın mən cükküldədim:

–Ay baba, nə yaman qorxursan müdirdən?!

Dik üzümə baxıb, qaşlarını çatdı.

–Gözünün yuxusu yoxdu, ay kişi?!

Əlini əlinə vurub, şaqqanaq çəkmədimi:

–Ha... ha... ha... zor deyil, güc deyil, nəsillikcədi, bala!

–Nə?!

–Müdriklik!

–"Müdriklik" nədi?!

–İndiki dillnən desək, çoxbilmişlik! Allah bəd nəzərindən saxlasın, day sən də himnən-cimnən danışmağa başlamısan! Rus demiş, "podtekst" gedirsən, yəni sətiraltı.

Başımı aşağı saldım.

–Bir dəfə – Babam sözünə davam elədi, – rəhmətlik anamdan soruşdum...

–Anamız.

–Həəə... anamız. "Ay arvad, günün hansı vaxtında doğmusan məni?!". Onu da deyim ki, biz dünyaya gələn zamanlarda uşaqları doğurdular. İndi nə analar bilir doğmaq nədi, nə də uşaqlar bilir doğulmaq nə! Doğmaq onsuz da əziyyətli işdi, doğulmaq ondan da betərdi. Bu çətinliyi çəkən ana nanə yarpağı kimi əsirdi balasının üstündə. Bu əziyyəti görən bala da canının qədrini bilirdi. Day sevdiyim qız mənim "sevirəm" sözümə "sevmirəm" cavabını verib,

durum gedim özümü asım... elə şeylər olmazdı. Uzunçuluq eləmədim ki?!

–Yox.

–Yoox?! Əla! Anam dedi, ay bala, gecə saat 01-də sancım tutdu, səhərə yaxın, saat 05-də "inqəəə" elədin. Əmin arvadı baxdı, dedi, bu uşağın alnı yekədi, alim olacaq. Alim olmağına oldum, amma bağ alimi. Ay Şəm-Şəm, ağlım kəsəndən dünyaya gəldiyim saatda da yuxudan oyanmağı özümə vərdiş elədim. Elə bu da doğulmaq kimi bir şeydi!

Kişini topa tutdum:

–Darıxmırsan?!

–Dünyaya gəldiyimə görə?!

–Yox, ey, səhər durub gedirsən bağa... təkbaşına...

–O ağacları ki, mən əkmişəm, onların hərəsi bir mənəm. Bir mənlə indi yüz mən olmuşam. Özüm özümlərlə darıxım, deyirsən?!

–Vallah, dözüm var səndə, ay baba!

–Niyə?!

–Ürəyin partlamır?!

–Səni səhv başa salıblar!

–Nəyi?!

–Ürəyim bomba deyil!

–Saatlarla heç kimlə danışıb eləmirsən axı!

–Səhvin var, ay Şəm-Şəm, ağaclarımla elə danışıram.

–Gəlib qulaq asaram, ha, hirsləndirmə məni!

–Qulaq asarsan, qulağından asaram səni!
–Ha... ha... ha...

***

Bir gün də Babam sübh səhərdən evdən çıxıb, ta axşamacan geri qayıtmadı. Bərk narahat olduq.

–Ay Şəm-Şəm, gəl gedib görək kişi harda qaldı?! – Bağı dörd dolandıq. O boyda adam iynə olub yoxa çıxmışdı. Birdən qulağıma xışıltı dəydi. Baxdım ki, külək əsmir, amma bir ağacın yarpaqları tir-tir titrəyir! Bir də diqqət eləyəndə...

–Ay ata?!
–Nədi?!
–Bura gəlsənə!
–Nə olub?!
–Budur ey, Babam!
–Hanı?!
–Ağac...
–Özünü asıb?!
–Allah eləməsin!
–Şükür Haqqın dərgahına! Ay ata, a kişi, ürəyimizi partlatmışdın ki?! Bıy... ay Şəm-Şəm, baban niyə cavab vermir?!
–Bir az da yaxına gəl!
–Hanı?!
–Budur ey, Babam dönüb ağac olub.

# Bağban

Bağda elə ağac tapmazdın ki, Bağbandan balaca olsun. Amma Bağban ağacların hamısından böyük idi;  iki il vardı  yüz ona tərəf gedirdi. Kənddə olsa-olsa bir-iki nəfər tay-tuşu qalmışdı, hamısı da özünü vurmuşdu yorğan-döşəyə. Bütün günü ya yatır, ya televizora baxır, ya da Allaha üsyan eləyirdilər:

–Niyə məni öldürmürsən, ay Allah?!

Bağban isə hər səhər oyanan kimi əllərini qoşalayıb, üzünü tuturdu göyə:

–Səndən yerdən göyəcən razıyam, Allahım, işıqlı dünyanın bu gününə də çıxartdın məni!

Tezcə də özünü verərdi bağa:

–Xoş gördük, balalarım, nə var, nə yox, gecəni necə keçirtmisiniz?! – Hər ağacın dibində bir hovur dayanır, boy-buxununa baxır, damarı çıxmış əlləriylə gövdəsini sığallayırdı.

Ağaclar da, hiss olunurdu ki, xoşallanır.

Bir dəfə...

–Pıç... pıç... pıç... – Bağa səs düşdü; ağaclar qarışdı bir-birinə.

–Yox, mən ömrümü çöldən tapmamışam!

–Sənə ömür verənə budu hörmətin?!

–Təşəkkür eləyirəm!

–Təşəkkür quru sözdü!

–Quru sözdüsə, bəs niyə işlədirlər?!

–Könlü xoş eləmək üçün!

–Mən də istəyirəm Bağbanın könlü xoş olsun!

–Bağbanın həyatı lazımdı bizə! Hərəmiz ömrümüzdən bir il kəsib, onun ömrünün üstünə qoysaq, üstəlik yüz il də yaşayar. Bağban öldü, qış da bərk gəldi. İnanırsınız ki, bizi qoyacaqlar kökümüzün üstündə qalaq?! Hamımızı qırıb basacaqlar ocağa!...

Qarağacdan başqa ağacların hamısı öz ömründən bir il kəsib verdilər Bağbana.

–Çox sağ olun, ağaclarım! Mən sizdən dünyalarca razıyam! Bu verdiyiniz illərin də hərəsini on eləyib özünüzə qaytaracam!

Ağaclar gün-gündən cavanlaşır, şaxlı-budaqlı, boylu-buxunlu olurdular. Bağban da hər səhər bağa girəndə gedib dururdu Qarağacın yanında, sinəsinə əl çəkir, budaqlarını oxşayır, sonra da o biri ağaclara yaxınlaşırdı. Baxırdı ki, Qarağac utanır.

Yaz təzəcə gəlmişdi. Bir səhər Bağban bağa girəndə, əli qoynunda qaldı; Qarağac qurumuşdu.

# Alça

Dar axşamçağı atamla anam bir-birinə qoşulub, evdən çıxdılar.

–Ay xala, uşaqlardan göz ol, bazara dəyib qayıdırıq. – Atam, hay-küylü adam olmasa da, bu dəfə lap bərkdən danışdı. O dəqiqə bildim ki, qonşulara eşitdirir... yəni ac qalmırıq.

–Uy da-ad! – Kiçik bacım əlini əlinə vurub, yerində oynamağa başladı, – gör nə boyda zənbil götürüblər!

Ortancıl bacım qımışdı:

–Arxayın ol, bazarı yığıb gətirəcəklər evimizə!

–Heç nə istəmirəm, alçadan başqa. – Kiçik bacım ağzını marçıldatdı.

Qardaşım tərs-tərs ona baxdı:

–Ay qız, get gəlinciyini oynat!

–Kaş, alça alaydılar!

–Alçanı neylirsən?! – Qardaşım hirsləndi.

–Sinifdə uşaqlar hər gün alça yeyir.

–Bala, indi alça dediyin safradı – zəhərdi, hələ tumu bərkiməyib, çox yeyərsən, ödün qa-

rışar, qızdırarsan! – Nənəm bacımı qucağına çəkib, başını sığalladı.

–Ay nənə, heç bizim uşaqlar qızdırmır!

–Ay qız, demədim sənə, get gəlinciyini oynat! –Qardaşım çımxırdı.

Atamala anam bir də küçədən əl-ayaq yığışandan sonra qayıdıb gəldilər. Kiçik bacım yatmışdı.

–Bazara girməli deyil! – Anam deyinməyə başladı.

–Alça ala bildiniz?! – Nənəm bacıma baxıb, soruşdu.

–Bir stəkan qalmışdı...

–Almadınız?!

–Bazar od tutub yanır, vallah, ay ana!

–Bəs bu uşağa nə cavab verəcəksiniz?!

–Cır alçaydı…

–Almadınız?! – Nənəm həyəcanlandı.

–Aldıq.

–Kartof-soğan necə?!

–Onsuz olar?!

–Evdə çörək də var… –Nənəm rahatlıqla nəfəs aldı.

–İki kilo ətə güclə pulumuz çatdı…

–Vallah, kənddə biz bilməzdik ət nədi. Qapıdan bir çolpa kəsib, çörəyə yavanlıq eləyərdik. Bakıya gələndən sonra mən ət yeməyi öyrənmişəm. İki gündən də bir təzyiqim qalxır.

–Ay ana, uşaqları başa salmaq olmur, ey. Elə kotlet istəyirlər.

–Xala! – Atam əlini dəsmala silə-silə nənəmə sarı çevrildi, – bizə şükür! Kənddə qonşumuz vardı, İslam, o günü küçədə rastıma çıxıb, gözünlə görməsən inanmazsan, yazığın qarnı quruyub dalına yapışıb. Deyirəm, bu nədi, ay İslam, xəstələnməmisən ki?! “Allah yoxsulluğun üzünü qara eləsin, – deyir, – neyləyim, bir dəstə uşaq, hamısının da yeyən ağzı, çatdıra bilmirəm. Srağa günü axşam evə gələndə, səndən nə gizlədim, pul tapmadım çörək almağa. Ha çalışdım gec gəlim, uşaqlar yatsın, baxdım ki, ayaq üstə dura bilmirəm. Bunlar da məni gözləyirmiş, demə. Qapını açmağımı gördüm; gözləri zilləndi əlimə. Sonra da hərəsi bir yana çəkilib, oturub, başlarını qoydular dizlərinə. Sənin mənə andın yoxdu, Allahın birli birliyinə and olsun, düz sabahacan ağlaşdılar.”.

# Sərçə

## 1.

Babam üzü qibləyə yatır, mən üzü Gündoğara. Hər səhər Günəş pəncərəmizdən əllərini uzadıb gözlərimi qıdığlayır. Yaxşı bilirəm nə istəyir: “Hə-ə... yuxu şirindi, sən də doymaq bilmirsən. Durmaq vaxtıdı!”. Hirslənirəm:

–Qoymazsan yataq?! – Acıqla kürəyimi çevirirəm ona. Bu dəfə də başlayır boynumun dalını sığallamağa. Şirin dilimi işə salıram.– Deyirsən, durum, ay Günəş?! – Tez atılıram çarpayıdan. Ağzımı yaxalayıb, üzümə su çırpıb, kitabımı qoltuğuma vurub, döşəkçəmi başıma qoyub, qaçıram Şahtutun altına. Otun üstünə döşəkçəmi, döşəkçənin üstünə özümü, özümün də qucağıma kitabımı basıb, otururam. O dəqiqə bir yağış başlayır, elə bil atlı çapır: tap-tap-tap...

Boynum-boğazım, qoynum-qoltuğum bir anda dolub daşır. Eləmirəm tənbəllik, seçib iri dənələri qoyuram dilimin ucuna:

–Mıı...– O an “Elnur, Əkil və onların başına gələnlər”  nağılından iki misra düşür yadıma:

Əy budağı, tut,
Tut ye, şirin tut.

Elə bil həyətin künc-bucağını eşələyən toyuq-cücə iştahlarını yanıma yollayır; əlüstü həyəcana düşürlər:

–Qar-qar-qar...

–Qır-qır-qır...

–Qur-qur-qur...

Bir də görürəm, “vəhşi”lərin arasındayam. Şahtutun pay elədiyi tut dənələrini mən “hə-hü” eləyincə, onlar göydə götürür.

Görürəm ki, yo-ox... acıblar, özü də bərk...

Əgər toyuq-cücə yox, uşaq olsaydılar, indi ağlaşma həyəti bürümüşdü. Nənəm də, Allah ömrünü bir az da uzun eləsin ki, yüzü də adlaya bilsin, görəcək arvaddı; gündə bir dəfə, özü də güclə əli uzanır dənə. Uzanır, ha, amma... yarı-könül.

Babam deyir:

–Bu dünyada acığım gələn bir şey var, o da “yarı-könül”dü! Nənəni yarı-könül almışam deyə, qabağıma xörəyi yarı-könül qoyur, yerimi yarı-könül salır, inəyə də, axı mənim inəyimdi,

yarı-könül verir otu, toyuğa da yarı-könül dən atır. Ona görə də toyuq-cücənin qarnına düşən canına çıxmır. Yazıqlar nə ətlik kimi ətlik olurlar, nə yumurtalıq kimi yumurtalıq olurlar, nə də toyuq...

–Ay nənə, eşitmirsən?!

–Nəyi, ay bala?

–"Qur-qur"u.

–Qumrudu, qurbağadı, hinduşkadı!? Nə bilim, hansını deyirsən, o qədər qur-qurumuz var.

–Hinduşkamız da var?!

–Allah versə, niyə olmur!?

–Toyuqlardan niyə danışmırsan?! Dən kisəsinə ziyandı yoxsa?!

–Dən kisəsinə nə olub, ay bala!?

–Bunları qıracaqsan, vallah!

–Allah gözü niyə verib onlara, ayağı niyə verib onlara, dimdiyi niyə verib onlara?! Çölün-düzün quşuna dən səpənmi var, su tökənmi var?! Nə yaxşı qırılıb-eləmirlər?! Yuva tikirlər, yumurta qoyurlar, bala çıxarırlar. Bizimkilər "ver, yeyim, ört, yatım"dan başqa nə bilir... hə?!

– Allah çölün quşuna qanad verib, uçub gedib yem tapır, su tapır.

–Onlara Allah qanad verib, mən də bu boyda həyat vermişəm bunlara; cücüyə nə gəlib, böcəyə nə gəlib, soxulcan adamın üstünə çıxır!?

## 2.

Bu səhər də ağzımı təzəcə şirin eləmişdim...

–Qar-qar-qar...

–Qır-qır-qır...

–Qur-qur-qur...

Kitabı otun üstünə atıb, ayağa qalxdım. Əlüstü fikrimi oxudular; uçan uçdu, qaçan qaçdı... məndən qabaq gedib durdular damın ağzında.

Nənəmin gözündən iraq, Ağçalanın sarıbuğdasından dolu tökdüm başlarına; şırrr...

Bir didişmə, bir dimdikləşmə – taq-taq-taq...

Birdən... gözlərim dörd oldu:

– Aaa... bu ki, sərçədi! – Yol keçəndə qonaqlığı görüb, mən boyda adamı görməyib. Özünü salıb toyuqların arasına, dimdiyi də dayanmır – cii... taq-taq... cii... taq-taq... Yerə oturmağımla, ovcuma düşməyi bir oldu:

–Ciii...

–Ay-hay... ha kişnə, ha fınxır, ha şıllağa qalx, qanadların göy görməyəcək! – Tez yumruğumu başımın üstə qaldırdım. –Ana-a-a...

İy bilirmiş kimi qardaşlarım –Tofiqlə Abdul da böyürdən çıxdılar:

–Ver, biz də oynadaq!

–Oyuncaqdı bu!?

–Bəs sən oynadırsan!?

–Özü oynayır.

–Necə tutdun, ay bala? – Anam eyvandan qışqırdı.

–Qarnından soruş.

–Qarnı nədi?

–“...quludu”!

–Nə qulu?

–Qarğa dili bilmirsən, ay arvad?! Qarınquludu, deyirəm də!

–Niyə qarınquludu?

–Dayan, qoy özündən soruşum: “Ay sərçə, anam deyir, niyə qarınqulusan?”.

–Cii...

– “Acmışam!” deyir, ay ana!

–Niyə acıb?

–Ay sərçə, anam deyir, niyə acmısan?.. Bıy, lal oldu ki!

–Bəlkə mən cavab verim?

–Cavab verə bilsən, ay-ulduzlu “beş” düşür sənə, ay ana!

–Ona görə acıb ki, yumurta üstə yatır, bala çıxardacaq. İndi canı sənin əlində, yumurtaları da üstü açıq. Bir azdan, soyuyub, buza dönəcəklər... Bir topa sərçə dönüb olacaq lax yumurta.

Bir də gördüm əlim soyuyub...

Qardaşlarımın gözü havada qalmışdı, ağzı açıq:

–Uçdu...u... uuu...

# İlanbalığı

Yaz gəlib, qar əriyən kimi Kür bir coşmaq coşdu, daşmaq daşdı, basıb çıxıb yan-yörəsini aldı ağzına. Bir ay çəkmədi, əl-ayağını yığışdırıb, sürünə-sürünə qayıdıb girdi məcrasına – sahilləri boyu gölməçələr qaldı. Suyuna üzməyə, palçığına yatmağa başladıq. Gördük yo-ooxx... tək deyilik, ətrafımızda şappa-şapdı.

–Ay uşaqlar, gəlin balıq tutaq.

–Mənim qırmağım yoxdu.

–Mənim torum yoxdu.

–Barmaqların var?

–Ayağımdakını da saysan, iyirmisi birdən.

–Ayağındakı ayağının, əlindəkiləri aç!

Şarappp... şırrr... bir də görürdük hərənin əlində bir günəş çapalayır.

–Ura... ura... ura...

–Gəlin suya batıb, gözüyumulu balıq tutaq. Gözüyumulu da adını deyək!

–Bir-iki-üç... bonqqq... – bir anda suyun üzündən yoxa çıxdıq.

–Şırrrr... – yenidən havaya qalxdı başımız. Hər başın da üstündə iki əl. Hər əlin də içində...

–Bu nədi?

–Çəki!

–Bu nədi?

–Şirbit!

–Bu nədi?

–İlanbalığı!

–Elnur, bizə də ver.

–Yo-ox... evimizə aparacam.

–Nə gözəl ilanbalığıdı!

–Çox sağ olun!

–Tək yeyəcəksən?!

–Tək tutmamışam?!

–Nuş olsun!

–Özüm bilərəm!

–Gözlərini aç, özün də gör!

–Ay ana, qoyma ilan vurdu məni! – Şappadan Elnurun əlindən ilan suya düşdü.

–Allah üzünə baxıb – suilanıdı.

# Nağıllar



# Ağıllı Mismar, Əsir Bülbül və Kasıb Qarı

Nə çiyinləri yerindəydi, nə qolları, nə əli. Üst əzalarından bir başıydı ki, o da pırtlayıb bədənindən çıxmışdı; həm girdəydi, həm yastı.

Ayrı fərqinə gəldikdə isə... "iki ayağından biri yoxdu" deyə bilmərəm, ayağı da anadangəlmə bir dənəydi. Şikəst sayılmasa da, həyatının özünə məxsus zamanlarını yanı üstə keçirərdi.

Günlərin birində onun da ömrünün sükutu pozuldu. Belindən yapışıb qaldırıb qoydular ayaq üstə; yerini rahatlayan kimi təpəsindən vurdular.

Bayaq sıçrayıb, taqqadan dəydi döşəməyə; stolun altından dəmir cingiltisi qopdu. Elə bil Dülgər idi başından vurulan; ayı bağıran kimi bağırdı:

–Lənətə gəlmiş! – Belini əyib, iməkləyə-iməkləyə stolun altına girdi. – Hara cəhənnəm oldun?! Bax ey... gör necə gizlənib! Bəri

dur! – Dülgər Mismarı şəhadət barmağıyla dartıb ovcuna saldı. Nısıldaya-nısıldaya stolun altından çıxıb, belini dikəltdi. – Elə bilirsən, qaçmaqla canını qurtaracaqsan?! Al, gəldi; taqqq! – Mismarın başı əyilib ayağına salama gəldi.

Dülgər hirslə çəkicin sapını bu iki doğmanın arasına yeridib, lap o taylı bu taylı Azərbaycan kimi birini güneyə saldı, birini quzeyə. Sonra da yanı üstə yıxıb, bir-iki də kürəyinə çəkdi. –Yaman qorxuzmuşdun məni, kişisən; sınmadın! – Mismarı o üz-bu üzünə çevirib, yavaşca ayağını ağzına soxdu. – Suya çəkib, pak elədim də səni. Gedər-gəlməz yolun açıq olsun! – Taqqq...

Mismar nısssadan qurşağacan oturdu oduncağa. – Gördü-ü-nnn?! Bir az döz, səni zamanın əhvalına bab eləyim; yaşamaq üçün əyilməyi də bacarmaq lazımdı, əzizim! Bayaqdan adi Mismar idin, indi oldun Cəftə! Pis iş görmədim ki, insanların yanında yerini uca elədim də. Bu gündən onların qulluğunda duracaqsan?! Bilirsən, buna nə deyirlər?! Xeyirxahlıq! – Dülgər çəkici yerə qoyub, qapını cırradan açıb, harasa getdi.

Mismar bic-bic güldü:

–Hi... hi... hi... xeyirxahlığa bax, a...

Qapı yenidən cırıldadı; Dülgər Bülbülü gətirib, qoydu qəfəsin içinə, qapısını örtdü:

–Özün də bilirsən ki, cənab Mismar, səni qaranlıqdan işıqlı dünyaya çıxartmışam. Görürsən

bunu?– Çəkici göstərdi. –Yerində bərk otur! O yan-bu yanlıq eləsən, Vallahi, elə vuraram, dördqat olarsan! – Çəkici götürüb, otaqdan çıxdı.

Mismar bu dəfə acı-acı güldü:

–Darıxma!

Hardansa qulaqlarına səs düşdü:

– Nə "darıxma" salmısan!

Mismar o yan - bu yana boylandı:

–A... a... bir xeyirxah da bu tərəfdən çıxdı?!

–Allahın bəxş elədiyi həyatla barışmalısan!

–Ey... alim...

–Mən alim deyiləm!

–Bəs niyə alimlik eləyirsən?!

–Sənə yaxşılıq eləmək istəyirəm!

–Kimsən ki?!

–Adım da adındandı, dərdim də dərdindən!

–Adımızı deyə bilmərəm, amma sən dərdliyə oxşamırsan!

–Ağlayım, deyirsən?!

–Sən ağlayana da oxşamırsan!

–Niyə?!

–Nə işin sahibisən?

–İt damında zəncir saxlayanam.

–Neçə ildi?

–Beş...

–Cəhənnəmə gedən yoldaşını çox istəyər!

–Düz sözə nə deyəsən.

–Səhvin var!

–Nədə?!

–Cəhənnəm sənlikdi!

–Bəs sən?!

–Allah mənə ağlı elə-belə verməyib ki?!

–Fikrin nədi?!

–Özüm bilərəm!

–Nəyi bilərsən, bilmirəm, amma öz xoşunla burdan çıxa bilməyəcəksən.

–Altı il qardaşlarımla bir beşiyin keşiyində durmuşuq; üç insan böyüyüyb qucağımızda. Ayaqları yer tutan kimi beşiyi aparıb atdılar anbara. Bir yandan rütubət, bir yandan qurd-quş... çürüyüb getdi?! Biz də at dişi kimi tökülüb qaldıq yan-yörəsində...

–Beşik nə pislik eləmişdi İnsana?!

–Ağzında “İnsan” deyirsən! Bu elə-belə söz deyil! Hər an “Allahlıq” həvəsinə düşən İnsan nə keçmişini tanıyır, nə indisini. Gözləri gələcəyə dikilib! Niyə?! Özü də bilmir!

–Nə demək istəyirsən?!

–İnsanın laqeydliyindən qardaşlarım pas atıb o dünyalıq oldular, mən də Cəftə.

–Cəftə?!

–Hə!

–Şadlığına şıllaq atma!

–Bülbülün azadlığını əlindən aldığım üçün?!

–...mmm...

–Nə mızıldayırsan?!

–...mmm... mmm...

–Eyyy... alim!

–Mən alim deyiləm!

–Olmaya sən də “Azadlıq” sözündən qorxursan?!

–mmm... mmm... mmm...

–Səninləyəm axı!

–Qoymazsan, ya-a-ta-am...

–Yuxun şirin olsun! – Mismar dərindən nəfəs aldı; köksü qabardı, qabırğaları sıxılsa da, nəfəsini verdiyi an az da olsa rahatlıq tapdı. Sonra yenidən oduncaq sıxdı onu. Yenidən nəfəs alıb-verdi. Birdən bağırdı. – Tapdı-ı-m!

Otağa əks-səda düşdü:

–Tap-dı-ım...

–Tap-dı-ım...

–Tap-dı-ım...

–Tap-dı-ım...

–Divarlar da məni alqışlayır. – Mismar sevindi. –Yerim genəlməsə, azad ola bilmərəm!

Mismar az qala bütün günü dərindən nəfəs alıb-vermə oyunu oynayırdı. Günlər ötür oduncağın caynaqları boşalır, Mismar rahatlıq tapır, rahatlandıqca da fəallaşırdı.

Yaz təzəcə girmişdi. Mismar bir səhər hiss elədi ki, ayağı üşüyür. Azca tərpənən kimi tap-

padan çıxıb düşdü yerə. Qəfəsin qapısı cırradan açıldı. Bülbül diksindi:

–Oy, ana, Pişik məni yeməyə gəlir, deyəsən?! – Sağ-soluna boylandı. –Ah! – Atılıb, qəfəsdən çıxdı, otaq boyu dövrə vurub, yavaşca pəncərənin dəmir şəbəkəsinə qondu. – Oxqay... çöldən nə təmiz hava gəlir!

Mismar sevincək oldu:

–Azadlığın mübarək, Bülbül!

–Sənin də azadlığın mübarək olsun!

Mismar pərt oldu:

–Necə-ə-ə?!

–Bu, sənin azadlığındı!

Mismar lap çaşıb qaldı:

–Məni-i-m?!

Bülbül uçub getmişdi.

Günortaya yaxın Gün qızanda, Mismarın qulaqlarına qarğa qarıltısı doldu. Qarıltı kəsilməmiş pəncərəyə kölgə düşdü.

–Misma-a-r?!

–Kimdi?!

–Adım adından olmasa da rəngim rəngindəndi!

–Nə bilim!

–Qara Qarğayam?!

–Nə yaxşı?!

–Bülbülün xahişiylə gəlmişəm. – Şappadan özünü saldı otağa. – Söz verib ki, oğlumun to-

yunda oxuyacaq! – O yan-bu yana baxa-baxa, yeriyib Mismarın belindən tutub, qalxıb oturdu pəncərənin ağzında. Əvvəlcə Mismarı çıxartdı bayıra, dalıyca da qanadlarını çırpıb özü çıxdı.

–Ay aman! – Bayaq əli süpürgəli qadın irəli cumdu. Qarğa cəld yana uçub, yuxarı qalxdı. – Dimdiyi yanmış nəsə çırpışdırıb apardı, deyəsən?!

Qarğa kəndin üstüylə dövrə vurub, bir evin doqqaz ağacına düşdü. Həyətə süpürgə çəkən Qarı xışıltıya başını qaldırdı:

–Qarğa-a-a! Qanadlarına and olsun, səni sevindirə bilməyəcəm. Nə toyuğum var, yumurtasını aparasan, nə cücəm var, özünü!

–Qarrr... – Qarğa doqqaz ağacından yerə atılıb, Qarıya tərəf addımladı.

–And olsun Allaha, əlimdəki süpürgə deyil, xalis tüfəngdi! Yaxına gəlmə, başında partlayar!

–Qarrr... – Qarğa Mismarı yerə qoyub, yan-yanı atıla-atıla kənara çəkildi.

–Bıy, görüm sənin gözlərinə duman düşməsin, ay Qarğa! – Qarı əyilib Mismarı götürdü; ətəyiylə tozunu silib, sinəsinə sıxdı. – Mənim də paltar asılanım olacaq, inşallah! – Bir çaylaq daşı da tapıb, gedib girdi daxmasına. Mismarın əyri belini düzəltdi, özünü də vurdu divara; yükün üstündən paltarlarını götürüb asdı Mismardan. Sevinclə baxıb-baxıb, paltarını sığallayıb,

salavat çevirib, çölə çıxdı. Qarğa doqqaz ağacında oturub, gözlərini zilləmişdi Qarıya.

–Bıy, başına daş düşən canım! – Qarı tələsik daxmaya qayıdıb, bu dəfə ətəyi dolu qayıtdı. –Halal xoşun olsun! – Bir ətək arpa səpdi yerə.

–Qarrr... qarrr... – Qarğa çinadanını doldurub, uçub getdi.

Mismar xoşbəxt olmuşdu:

–Balaca canıyla Bülbül necə də uzaqgörən imiş!

Birdən daxmanın qabağındakı armud ağacından cəh-cəh qopdu; Bülbül idi, Azadlıq haqqında oxuyurdu.

# Necə oldu ki, Sarımsaq öz İyini özündən qovdu

## *1. Ana, Şəm-Şəm, Sarımsaq və İy...*

Şəm-Şəm evə girən kimi çantanı atıb, cumdu anasına; qucaqlayıb, üz-gözündən öpdü:

–Nə yaxşı sən varsan, ay ana, yoxsa qırmızı turpa dönəcəkdim!

Anası mat qaldı.

–Dərsə girəndən Ramizin qarnı başladı curuldamağa. Bu yandan da biz; pıqqa-pıq... Elə hey müəllimə acıqlanırdı: "Bəsdi, az hırıldaşın!". Birdən elə bir səs çıxdı ki, Ramizin qarnından, müəllimə də güldü: "Ay bala, niyə ac gəlirsən?!". Yazıq turp kimi qıp-qırmızı oldu! Deyirəm, nə yaxşı ki, mənə tezdən çörək yedizdirirsən, ay ana!

–Demirsənmi, gücnən?!

–Utandırma məni! – Şəm-Şəm başını aşağı salıb, ayağının ucuyla döşəməni qurdalayıb, hərdən də bic-bic anasına baxırdı.

–Canına çıxsın, ay utancaq oğlan!

–Ha... ha... ha... Təşəkkür!

–Ay Şəm!

–Can!

–Mən sənə can, ay bala, elə demə!

Tez Şəm-Şəm ayaqlarını cütləyib, sağ əlini apardı gicgahına:

–Azərbaycan əsgəri Şəm-Şəm qulluğunda hazırdı, cənab komandir!

–Nə balaca təşəkkürün oldu, ay Şəm?!

–İstəyirsən sənin xətrinə dönüm cin olum?!

–Cin olma, cin kimi işbilən ol!

–İmtahan eləyə bilərsən!

Anası gülümsündü.

–Şübhən var?!

–Onda düş anbara, kartof-soğan gətir, ana qurban!

–Olmadı da!

–Niyə?!

–Dünyada iki acığım gələn yer varsa, biri anbardı!

–İnşallah, qaqaşın dünyaya gələndə, səni anbara qoymayacağam!

Bir azdan Şəm-Şəmin səsi anbardan gəlirdi:

–Gəlin gedək, kartofum,

Soğanım, gəlin gedək!

Birinizə "bəy" deyim,
Biriniz – "gəlin"... – gedək!
Qəflətən arı sancdı elə bil – dik dayandı:
–Bu nə səsdi?! Oğru olar ey, birdən?!

Bərk pıç-pıçı gəlirdi. Şəm-Şəm səsisni kəsən kimi pıçıltı da kəsildi. O da kartof-soğanı aşsüzənə doldurub, atılıb anbardan çıxdı.

–Bu dəfə də məni aparmadılar! –Sarımsaq əsib-coşdu.

–Niyə darıxırsan, aparacaqlar da?! – Sarımsağın İyi sakitcə cavab verdi.

–Haçan?!

–Hər nemətin öz vaxtı var!

–Nə yaxşı kartofla soğanın öz vaxtı yoxdu?! Gündə neçə dəfə dalıyca gəlirlər! Amma Sarımsaq gözləməlidir!

–...

–Niyə səsin batdı?!

–Mən nə bilim, ey!

–Bilməzsən da!

–Niyə bilmirəm?!

–Ona görə ki, taxsırın hamısı səndədi!

–Məndə-ə-ə?! Niyə?!

–Bilmirsən?!

–Hardan bilə bilərəm?!

–Çünki acısan, üstəlik də pis qoxu verirsən!

–Neyləyim, Allah belə yaradıb da məni?!

–Allah səni İy yaradınca, Ətir yaradaydı da!

–Allahın işinə əl aparma!

–Mən Allahın bu işindən razı deyiləm! Başa düşdün?!

–Ay Sarımsaq, ağıllı ol!

–Sən mənə ağıl öyrədəcəksən?!

–“Mən” təkcə “mən” deyiləm axı! – İy bağırdı. – “Mən” həm də “sən”əm!

–Necə “mən”sən?!

–Necəsi yoxdu ki! Mən “İy” olmasaydım, sən də “Sarımsaq” olmazdın!

–Mən bunu istəmirəm!

–Sən istəməklə deyil ki! Yaradan bizi belə yaradıb!

–Yaradan gərək səni məndə yaradaydı?!

–Özü bilən məsləhətdi!

–Qızılgülün ətrini verəydi də mənə!

–Ay Sarımsaq, biz birlikdə min dərdin dərmanıyıq! Niyə şadlığına şıllaq atırsan?!

–Allah kəssin elə dərmanlığı ki, ayda-ildə bir düşürük yada!

–Hər halda düşürük!

–Bilirsən, nə var?!

–Əlbəttə yox!

–Mən səndən bezmişəm, qandın?!

–Bezmisən?!

–Hə!

–Bu da təzə çıxdı!

–Təzə, ya köhnə, özünə yer tap!

–Sən mənsiz yaşaya bilməzsən!

–Niyə yaşaya bilmərəm?!

–Ağzına qurd düşər!

Bu vaxtı Gün batdı, Sarımsaqla İyin də söz-söhbəti kəsildi.

## 2. *“Qokqu...”...*

Şəm-Şəm səhəri günü axşama yaxın yenidən özünü verdi anbara:

–Ay Sarımsaq, hayandasan,
Dalınca gəlmişəm, gedək?!
Əriştə bişirib anam,
Gedək onu dadlı edək!

Anbar yarı-qaranlıq olduğundan Şəm-Şəm ov tulası kimi burnunu havaya qaldırıb, iyləyə-iyləyə gah divarın dibinə qaçdı, gah tərəcələrin altına girdi, gah soğanın başına fırlandı. Əli hər yerdən üzüləndə atılıb çıxdı eşiyə:

–Ay, ana!

Ana başını çevirib, Şəm-Şəmə baxdı.

–Qokqu!

–Nə qokqu, ay bala?!

–Gəl məni də tanıma!

–Sarımsağı tapmadın?

–Əlim boşdusa, ağzını niyə ağrıdırsan?!

## *3. "Ye, Yetim..."...*

Sarımsaq o qədər danlamışdı ki, İy də axırda çıxıb getmişdi. İy gedən kimi də Sarımsağın bədəni boşalmış, başı çiyninə ağırlıq etmiş, gözləri yumulmuşdu; o yatan idi.

Bir həftə sonra Sarımsağın bədənində qara-qara nöqtələr göründü. Bir gün də nöqtələr titrədi, tərpəndi, hərəkətə gəldi. Çox keçmədi ki, xırda-xırda qurd olub düşdülər Sarımsağın canına;

"Ye, Yetim, tapmarsan,
Az ye, Yetim, çatdarsan!".

İki həftəydi İyin döymədiyi qapı qalmamışdı; hara gedirdi, sinəsindən itələyib salırdılar çölə. Heç yanda özünə sığınacaq tapmadığından, oturub bərk fikirləşirdi. Keçmiş günləri yadına düşdü; gözləri doldu:

–Lap darıxdım, ha! Ölüm-itim dünyasıdı, gedim görüm, Sarımsağın başına nə gəldi.

İyin anbarda gəzmədiyi yer qalmadı. Axır ki, bir qutunun yanında Sarımsağın pal-paltarını tapdı:

–Ay da-a-ad! – Pal-paltarı gözlərinə basıb, hönkürdü. – Niyə mən sənin sözünə baxıb, çıxıb

getdim, niyə?! Sənin ağlın çaşmışdı, məni qovurdun, bəs mənim ağlım hardaydı?!

Günəş bata-batda anbarın qaranlıq küncünə işıq düşdü; Sarımsağın pal-paltarının altında balaca, sarı bir  ləkə qalmışdı.

# İt və Eşşək

Eşşək təzəcə oyanmışdı, gərnəşib, dalı üstə çevrildi; havaya bir-iki təpik atıb, sıçrayıb dik durdu. Dal ayağını dala, qabaq ayağını qabağa qoyub, başını göyə qaldırdı. Qəfildən alt çənəsi üst çənəsindən ayrıldı, ağzı getdi qulaqlarının dibinə, sinəsində yığılıb qalmış iyi-qoxu göyə üfürüb, başladı içini çəkməyə:

–İii... aaa... iii... aaa... i... a... i... a...

Bu vaxtı həyətə bir İt girdi. Eşşək gülər gözlərini, ağaran dişlərini, oynayan quyruğunu görüb,  bir könüldən min könülə vuruldu İtə. Demə, İtin də fikrindəki Eşşək imiş. Yavaş-yavaş üz-üzə gəlib, burun-buruna verdilər. Birdən Eşşəyin ağzı açıldı:

–İ-a...

İt də bunu gözləyirmiş demə:

–Ham...

O gündən oldular dost. Elə dost ki, yarım saat bir yerdə olmasaydılar dinclik tapmazdılar. Mehribanlığın da qəribə xasiyyəti var; həddini aşdımı axırı qan-qaraçılığa dönür.

Bir səhər İtlə Eşşək ot tayasının dalına çəkilib, iştahla çənə döyürdülər; İt dünəndən qalma sümüyün iliyini sümürür, Eşşək də gah ot qırpır, gah da yonca bağına ağız atırdı. Birdən Eşşək başını dik qaldırdı; yerində yırğalanıb, soncuqladı. Sonra İtə sarı çevirib, bir ağız var-gəl elədi:

–İa...

İt dişini sümükdən çəkib Eşşəyə baxdı:

–Ham?

–Bacı-bacı!

–Can?!

–Xəbərin var?!

–Nədən?

–Bir-iki aya doğacam?!

–Allah köməyin olsun!

Eşşəyin gözləri bərələ qaldı:

–Bacı-bacı, doğan özüm olacam ey!

–Ona görə də deyirəm, Allah köməyin olsun!

–Allah?! Allah kimdi?!

–Nə əcəb bilmirsən?!

–Hardan bilə bilərəm, oxumamışam axı?!

–Allah – bizi yaradan!

–Məni də?!

–Bəli!

–Ata-anamı deyirsən?!

–Ata-ananı da yaradan odur!

–Baba-nənəmi deyirsən?!

–Eşşək ki, eşşək! – İt hirslə dalını ona çevirib, bir-iki əl eşənək atdı.

–İa... a...

–Nə anqırırsan, qanacağın olsun, qulağım batmışdı ki?!

–Yavaş eşənək atsana. Daş başıma dəymişdi!

–Görürəm, başının qapısı bağlıdı, bəlkə daş aça!

–Daş başımı yarar, ey!

–İşləməyən baş yarılsa yaxşıdı!

–Niyə işləmir?!

–Ona görə ki, sən Allahı tanımırsan!

–Kimdi ey, Allah?!

–Allah yeri-göyü xəlq eləyən, yəni, yaradan!

–Göy mənim nəyimə lazımdı, bacı-bacı?! Mənimki yernəndi. Otum yerdədi, yerdədi, suyum yerdədi, yerdədi, axurum da hə?!

–Allahsız qızı, Allahsız!

–Bu nə deməkdi?!

–Bəs bu nə danışıqdı?!

–Ağzımı bağlayım, deyirsən?!

–Allahsız danışan ağız bağlansa yaxşıdır.

–Sən lap bizim molla kimi qırıldadırsan!

–Qarğa özünsən! Mədəni danış! Nə deyir sizin kəndin mollası?!

–İnsanlar, Şeytan sizi azdırıb, dünya malından ötrü ölürsünüz, deyir!

–Düz deyir də!

–Bəs özü yas məclisində bir oturuma bir qazan dolmadan doymur!

–Acından ölsün?!

–Hələ bir qazan da evlərinə aparır!

–Qəribə Eşşəksən ey, uşaqları camaatın ağzına baxa-baxa qalsın?!

–Sənin sözündən belə çıxır ki, dolma dünya malı deyil?!

–Sən də lap burunlu-qulaqlı Şeytan olub getmisən, ha!

–Şeytan kimdi?!

–Allahın düşməni!

–Niyə düşməndilər?

–Şeytan lənətə gəlmiş Allahla düz sarımır?!

–Nəyi düz sarımır?!

–Yəni, düz gəlmir!

–O, Allahla Şeytanın öz problemidi! Bizə kim ixtiyar verib ki, onların daxili işinə qarışaq!

–Niyə qarışmayaq?!

–Demokratiya deyil?!

–Allah-Şeytan məsələsində demokratiya yoxdu! Biz Allahın tərəfində olmalıyıq!

–Ay İt!

–Bəli?!

–İndi 21-ci əsrdi. Bütün dünya demokratiyadan danışır! Hirsləndirmə məni, ağzının üstündən bir təpik ilişdirərəm, dodaqların çırıq-çırıq olar.

–Taxsırım nədi?!
–Bəs demokratiya kimin üçündü?!
–İnsan üçün!
–Deməli, Allah demokratiyanı xoşlamır?!
–Kafir!
–Kafir nədi?!
–Allahı tanımayan!
–Tanımaq üçün görmək lazımdı, dostum! – Eşşək başını aşağı salıb, bir çəngə ot qırpdı.
–Allah görmək üçün deyil! –İt hirslə bağırdı.
–Bəs nə üçündü?!
–Allah sitayiş eləmək üçündü.
–"Sitayiş" nə olan şeydi?!
–Hörmət eləmək, dua eləmək, lap kəsəsi, sevmək!
–Mən gözüm görmədiyi şeyi sevə bilmərəm!
İt bir ağız "ham" eləyib, həyətdən çıxdı. Eşşək də heç nə olmamış kimi asta-asta yeriyib girdi axura. Bir azdan Günəş batdı.

***

Eşşək təzəcə yuxuya getmişdi ki, üzünə kölgə düşdü. Yavaşca sağ gözünü açdı, heç nə görmədi. Yenə də gözünü yumdu. Hiss elədi ki, kölgə durduğu yerdədi. Bu dəfə iki gözünü birdən açdı. Yenə də bir şey görmədi. "Birdən oğru olar, ot-ələfimi aparar, acından ölərəm!".

–Eşşək?!
–Kimsən?!
–Mənəm!
–Adın yoxdu?!
–Allah!
–Allah?! – Eşşək dik atıldı. – İtin dediyi kişi?!
–Mən kişi deyiləm?!
–Bəs kimsən?!
–Allah!
–Allah kişi deyil?!
–Allah yaradandı!
–Xeyir ola?!
–Niyə məni tanımırsan?!
–Axı səni görməmişəm!
–Mən gözəgörünməzəm!
–Gözəgörünməz?!
–Düz anlamısan!
–Məndən nə istəyirsən?!
–İstəyirəm, Allahını tanıyasan!
–İşini-gücünü atıb elə buna görə gəlmisən?!
–Bu azdı ki, sən Allahını tanımırsan?!
–Kim deyir ki, tanımıram?!
–İt!
–Mən Allahımı tanıyıram!
–İt deyir, sən kafirsən?!
– İt qələt eləyir atabaatası parağın ağzıyla! Mən Allahımı da tanıyıram, üstəlik məhəbbətim də var ona!

–Əhsən!

–Nə "Əhsən"?!

–Yəni Allahı tanıyıb, sevmək yaxşı hərəkətdi!

–Cənab Allah!

–Bəli?

–O Allah sən deyilsən!

–Kimdi?!

–İnsan!

–İnsan?!

–Xahiş edirəm, mane olmayasınız, sübh səhərdən iş dalıyca gedəcəm, qoyun gözümün acısını alım! Gecəniz xeyrə qalsın, yuxunuz şirin olsun!

# Fal

Qara Toyuq çətinə düşmüşdü. Qarşısında uzun yol, qarnında yumurta, arxasıyca da dördəmə gələn Şələquyruq. Ya qurban getməliydi, ya qurban verməli... Arxası da sözünə baxmırdı; bir də onu gördü ki, pırt elədi; otluğun arasına fal atdı. Yükü yüngülləşən kimi qanadlarına güc gəldi. Beş-altı sıçrayış eləyib, havaya baş vurub, özünü saldı hinə.

Fal qaldı dünyanın bir bucağında; tək-tənha! Təklik də Allaha gəlib. Allahdan başqa nə ki, tək var, hamısının da bir xəstəliyi olur – darıxmaq.

Fal da özündən başqa heç kimi görməyəndə fikirlər qarğa-quzğun kimi töküldü üstünə; ha fikirləşirdi; kimdi, nəçidi, niyə bu dünyaya gəlib, özünü tanıya bilmədi?! Necə tanıyaydı, danışmağa dili, yeriməyə ayağı yox idi. Amma ağlı başındaydı. Bilirdi, dünyaya gəlibsə, deməli, nəyə görəsə gəlib. Axı dünyaya elə-belə gəlmirlər.

Hirsli başda ağıl olmaz, deyiblər. Hirs də hərarətdi. Falın hərarəti endikcə fikri aydınla-

şırdı. Fikri aydınlaşdıqca da üşüməyə başlayırdı. Yadına nə düşdüsə, altına baxdı; ot gördü, yan-yörəsinə baxdı; ot gördü. Birdən qulaqlarına xışıltı dəydi; dik başını qaldıranda; Göyü gördü, uçan quşları gördü. Amma birini də tanıya bilmədi. Quşlar da uçub keçdikcə qıyğacı baxırdı ona; hiss olunurdu, tanımırlar. Falın dodağı qaçdı:

–Dünya gözümün qabağındaymış ki! Mən də deyirəm "təkəm"!

Təzəcə gün axşam olmuşdu, otları aralayıb, bir baş uzandı; iki fikirli göz dikildi Fala.

–Ana-a-a! – Fal çığırdı.

Başın ağzı açıla qaldı:

–Sən kimsən?!

–Mən Fal yumurtayam!

–Bayaq nə dedin?!

–"Ana-a-a"!

–Mən hələ ana olmamışam!

–Niyə?!

–Yumurtlaya bilmirəm!

–Məndən yaxşı Yumurta?! Nə verirsən, balan olum?!

–Balam olmaq üçün məndən olmalısan.

–Elə bil!

–Elə bilməklə doğma olmaq olmaz!

–İndi doğmalar yad olub, bir yad doğma olanda dünya dığılacaq?!

Bayaq baş tərpəndi, dalıyca da bədən gəldi; guppadan özünü yıxdı yumurtanın üstünə.

–Oy! Sınmışdım ki!

–Hələ sınmağına çox var.

–Öləcəm, deyirsən?

–Hər sınan ölmür ki! Ya özü olur, ya da heç nə!

–Özüm deyiləm bəyəm?!

–Sənin özün olmağına xeyli qalıb. Onu da dünya versə. Verməsə, gözübağlı gəldiyin kimi gözübağlı da gedəcəksən.

–Özüm olsam nə olacam?!

–Can.

–Ca-an?! Can nədi?!

–Güc.

–Alim deyilsən ki?!

–Babam olub.

–Kim?!

–Şirvanlı Nəsimi.

–O nə alimlik eləyib?

–"Kimsə gümani-zənn ilə olmadı həqqilə biliş,

Həqqi bilən bilir ki, mən zənnü gümanə sığmazam!".

–Sığırsan axı!

–Gördüyünəm sığan!

–Görmədiyim bəs?!

–Onu səndən görəcəyik!

***

Düz iyirmi bir gündən sonra Yumurta şaqqıldayıb töküldü; içindən bir cücə çıxdı. Başla bədən o dəqiqə qalxıb getdilər. Cücə qaldı tək-tənha. Heç darıxıb eləmirdi də.

–Niyə darıxıram?! Mən təkəm, dünya da təkdi. İkimiz bir yerdə cəmik! – Cücə atılıb-düşür, ci-ci-ciyildəyir, şaqqıldayıb-qaqqıldayırdı. –Xoş gəlmişəm! Xoş gəlmişəm! Xoş gəlmişəm!

Birdən bir cüt gülümsər göz dikildi Cücəyə. Bir ağız açıldı qarşısında. Cücə dimdiyini dik tutub, şəstlə irəli yeridi. Bayaq balaca bir "ciii..." eşidildi, dalıyca da "hopp...".

Dünya Cücəyə də qalmadı!

# *Necə oldu ki, "A" dönüb "Ana" oldu*

## *1.Şəm-Şəm, Yazı taxtası, bir də "A"...*

Zəng eşiyə vurulan kimi uşaqlar çantalarını qapıb, bir-birini itələyə-itələyə sinifdən çıxdılar. Bircə Şəm-Şəm qaldı. Növbətçi idi; partaları səliqəyə saldı, yerə düşən kağızları götürdü, yazı taxtasını silib, par-par parıldatdı. Sonra da çantasını çiyninə aşırıb, asta-asta qapıya sarı yeridi. Sinifdən çıxa-çıxda ayaq saxladı, dalın-dalın gedib düz gəlib dayandı Yazı taxtasının qabağında. Təbaşiri götürdü, lövhənin yuxarı başında iri bir "A" yazdı. Təbaşiri qoyub, geri çəkildi; bir qədər də yazdığına – qara fonda ağ hərfin səliqəsinə baxdı. Birdən sağ əlini yumub, sinəsinə vurdu:

–Əhsən sənə, Şəm-Şəm!

Sevinə-sevinə bir əlində çanta, o biri əliylə də qapını açıb, özünü çölə tulladı.

## *2.Söyüd ağacı, Bülbül, bir də Sinif otağı*

Hava qaralırdı. Göy üzündə tez-tez əvvəlcə zəif, sonra güclənən, daha sonra zəifləyib itən xışıltı eşidilirdi; çöllərdən, çəmənlərdən yığışıb yuvalarına uçan quşlar idi. Bir azdan ətraf qaranlıq və sükuta batdı.

Hər axşam kənd məktəbinin həyətindəki söyüd ağacına bir Bülbül düşür, sinif otaqlarına baxa-baxa səhərəcən oxuyurdu. Bu axşam da Bülbülün gecə nağılı ətrafa yayılırdı:

Cik... cik... cik... cik... cirik...

Bülbül bir qədər oxuyub, uçub pəncərənin dəmir şəbəkəsinə qondu. Boynunu uzadıb, sinifə baxdı. Sonra başını çiyninə çəkib, fikrə getdi. Bülbül yenidən dikəldi, yenidən Yazı taxtasına baxdı. Handan-hana öz-özünə dedi:

–Bu ağaran nədi, görəsən?!

## *3.Bülbül, Yazı taxtası, bir də Təbaşir...*

Birdən Bülbül həyəcana gəldi:

–Ah! Bu ki, "A"-dı. Özü də bərk yatır zalım balası. Bəlkə oyadım?! –Bunu demişdi, sinfin qaranlıq küncündən acıqlı səs eşitdi:

–Əhsən!

Bülbül necə qorxdusa, bir də gördü ağacın yarpağı sıx yerində oturub. Səs isə öz işindədi:

–Hünərli çıxıb! Dünyanın qəribə işləri varmış, xəbərimiz olmayıb!

Bülbül səsini udub, qorxa-qorxa dinləyirdi.

–Bəlkə baxıcıdı bu, ürəkləri oxuyur?!

Axır ki, bülbül canını dişinə tutub, astadan soruşdu:

–Bağışlayın, siz kimsiniz?!

Birdən səs yumşaldı, hətta bir qədər şirinləşdi də:

–Qoçaqsan, tanı!

Bülbül başa düşdü ki, kimdisə, yad deyil.

–Görə bilirəm ki, tanıya da bilim!

–Ay səni, Bülbül, mənəm da – Təbaşirəm!

–Ah! – Bülbül yenidən atılıb düşdü dəmir şəbəkəyə. –Yaman qorxuzdun məni, ay ağsaqqal!

–Ha... ha... Sınayırdım səni, görüm, qorxacaqsan, ya yox!

–Gecə zülmət, özüm tək, necə qorxmayım?

–Az-az görünürsən, ay Bülbül?!

–İşim başımdan aşır, qardaş!

–Xeyir ola?!

–Bala böyüdürəm!

Söz Təbaşirə güllə kimi dəydi; səsini içinə çəkib, köks ötürdü:

–Ah!

Bülbül havaya atılıb, bir-iki qanad çalıb, yenidən budağa düşdü:

–Nə yaman ah çəkdin, ay Təbaşir, lap ürəyim parçalandı!

Təbaşir yazıq-yazıq dilləndi:

–Bala böyütməkdən hünər iş tanımıram, qardaş. Hamıya da qismət olan deyil. Elə götürək məni, bu yaşa gəlmişəm bir dənə yadigarım yoxdu. Məndən sonra yerimdə kim qalacaq?! Heç kim! Yaşamıram ki, toz olub gedirəm!

Bülbül onun könlünü almaq istədi:

–Kaş sənin bəxtin məndə olaydı!

Təbaşir eşitdiyi sözdən yerində yırğalandı:

–Ay Bülbül, mənə təsəlli vermə!

–Qardaş, təsəlli nədi?! Bu el, bu oba sənin sənin övladların deyil məgər?!

–Necə?– Təbaşirin gözləri bərəldi. – Mənimlə zarafat eləmək fikrinə düşmüsən, nədi?!

–Ay Təbaşir, toz olub getmirsən, elm olursan, bilik olursan!

Təbaşirin üzünə işıq qondu:

–Sən Allah, düz deyirsən?!

–Ay Təbaşir, necə düz deyirsən, kor kor, gör gör, göz qabağında deyil gördüyün işlər bəyəm?!

–Nə bilim, vallah, elə bilirəm faydasız yaşayıram. – Təbaşir susub, handan-hana hirslə danışdı. – Qardaş, elə ki, yazdığımı insanların ağ-

lında-düşüncəsində görürəm, uçmağa qanadım olmur. Elə ki, “Ana” yazıb, “alma” oxuyurlar, özümə ölüm arzulayıram!

Birdən gecə qaranlığından ucalan nərilti-gurultu onların səsini batırdı.

–Eşidirsən?! – Bülbül soruşdu.

–Traktordu.

–Gecənin bu vaxtı neyləyir, görəsən?!

–İndi əkin-dirrik zamanıdı. Babam deyərdi, əkəndə bir gün qabağa düşdün, biçində on gün qabaqsan!

–Ba-ax, ay Təbaşir, traktorçu da şirin yuxunu yatmır ki, bolluq-bərəkət yaratsın!

–Doğrudu!

–Bilirsən, onunla sənin fərqin nədi?!

–Yo-ox!

–Traktorçu istəmir ki, əkin geciksin! Yoxsa o özü də ziyana düşər, ürəyi istəyən məhsulu verməzlər ona. Amma sənin heç nədə marağın yoxdu. Çalışdığın da odur ki, insan oğlu elm qazansın, savadlı olsun.

–Vallah, heç nədə tamahım yoxdu!

–Tamahın olsaydı, ürəyin daşa dönərdi. Bir söz belə yaza bilməzdin!

–Ay Bülbül!

–Can!

–Lövhədəki “A”-nı sən yazmısan?

–Necə bəyəm?

–Heç... Deyirəm, yatır.

–Yatır?! Nədən bilirsən?

–Bilməli nə var ki?! Yatmasaydı "A" olub qalmazdı, söz olardı, söhbət olardı.

–Heç ağlıma da gəlməzdi!

–İstəyirsən, oyadım?

Təbaşir təəccüblə Bülbülə baxdı:

–Oyadasan?! Necə?

–Bir-iki ağız oxuyacam, oyanacaq!

Təbaşir lap heyrətə gəldi:

–Yatanı nəğməylə oyatmaq olar, ay Bülbül?

## *4. Bülbül, Nöqtə, bir də "A"...*

Atılıb pəncərə taxtasına düşən Bülbül başını aşağı əyib, cəld dimdiyini dik qaldırdı. Gözlərini yumub, asta-asta oxumağa başladı. Oxudu... oxudu... oxudu... oxudu... Birdən Yazı taxtasında balaca bir nöqtə tərpəndi. Bülbül səsinə bir az da şirinlik qatdı. Nöqtə silkələndi, asqırıb oyandı:

–Oh! Nə yaman yatmışam! –Heyrətlə o üzbu üzünə baxdı. "A"nı görüb, içini çəkdi. –Uy! Bu nə yaxşı burdadı?! Dayan, sənə dərs vermək mənə borc olsun! – Sürünə-sürünə gedib dayandı "A"nın dalında. – Day burda qal oğlu qalsan, heç yana gedə bilməzsən. – Sərxoş adamlar kimi o dəqiqə də yıxılıb yatdı.

Bülbül isə susmaq bilmirdi. Səsi enir-enir, birdən də qalxıb ucalırdı. Axır ki, “A” da tərpənib, gözlərini açdı. Bülbül səsini bir az da həzinləşdirdi. “A” başını uzadıb ətrafına boylandı. Nöqtəni gördü:

–Buna bax, sən Allah, qoymur ki, ürəyimiz istədiyi kimi yaşayaq. – Cəld keçib durdu Nöqtənin yolunun üstündə...

Bülbül uçub getmişdi...

“A” tək qaldı. Başladı qorxmağa. Amma özünə təsəlli verməyi də unutmadı:

–Tək qaldın, ya oxuyasan, ya da fit çalasan gərək!

“A” oxuya bilmirdi. Odur ki, başladı fit çalmağa. Başa düşürdü ki, fit çalmaq ədəbdən deyil, amma neyləyə bilərdi, qorxurdu axı. Qorxu da belə şeydi, qorxmasan, bilməzsən, qorxu nədi.

“A” fit çaldı... çaldı... baxdı ki, yo-oo-ox, dayca da bərk qorxur. Bu dəfə də özünü verdi qorxunun əlinə; qorxdu... qorxdu... birdən bağırdı:

–AAA... aaa...

Ürəyi getdi. Özünə gələndə, yan-yörəsinə baxdı, gördü tək deyil. Arxasında kiçik bir “n” dayanıb, bir də balaca qardaşı – “a”. Yazı taxtasının işığında özlərini görəndə, gözlərinə inanmadı. Əlini üzünə aparıb, sevincindən ağladı – “A” dönüb “Ana” olmuşdu.

## *5. Şəm-Şəm, Yazı taxtası, Müəllim, bir də "Ana"...*

p Şəm-Şəm təkrar-təkrar əskini isladır, təkrar-təkrar yazı taxtasına çəkir, "Ana" sözü pozulmurdu ki, pozulmurdu. Birdən qulaqları cingildədi; zəng içəri vuruldu. Uşaqlar hay-küylə sinfə doluşdu. Hamı keçib yerində oturandan sonra Müəllim ağır-ağır içəri girdi:

–Salam, uşaqlar!

–Salam, Müəllim! – şagirdlər ayağa durub, xorla cavab verdilər.

–Əyləşin!

Müəllim kompüterə baxsa da, gözü uşaqlardaydı. Uşaqların fikri isə Yazı taxtasında.

–Hə-ə... Yazı taxtasını niyə silməmisiniz?!

Uşaqlar bir-birinə baxdı.

Tez Şəm-Şəm ayağa durdu:

–Müəllim, dünən növbətçiydim, evə gedəndə lövhəyə "A" yazmışdım. Bu gün sinfə girəndə gördüm, "A" – "Ana" olub. Ha silirəm, silinmir.

Müəllim cəld qalxıb, Yazı taxtasına yaxınlaşdı – silgini götürüb qoydu "Ana" sözünün üstünə. Nə fikirləşdisə silgini çəkdi – əli daş kimi yanına düşdü. Tez geri – şagirdlərə sarı çevrildi:

–Qoyun necə var, elə də qalsın!

O gündən hər dərs “Ana” adıyla başlayır, “Ana” adıyla da sona yetirdi. Görünməmiş iş olmuşdu; bütün sinif “əla” oxuyurdu.

# Şeytan

Atəş!

Uçmaq həvəsi Ağ atı qabağa itələyəndə qanadlanıb havaya qalxacağını gözləyirdi. Amma bu dəfə də möcüzə baş vermədi. Finişə çatanda, yalından tutub, boynuna növbəti Qızıl medalı keçirtdilər.

Ağ at tövləyə qayıdan kimi axura qalaqlanmış ota gözünün ucuyla da baxmadı; hirslə özünü çırpdı yerə; daş kimi kirpikləri bir-birinə yapışdı. Ta bir də dar axşamçağı ayılıb, başını çiynindən götürəndə gördü canı ağrıyır. Qabaq əllərini yerə verib, dik qalxdı. Ağrı kürəyindən başlayıb bütün bədəni boyu yayıldı. Nə işdisə çiyinlərinin ucuna elə bil iynə batırırdılar.

Kişnəyə-kişnəyə tövləni dörd dolandı. Ağrının zəiflədiyini duyub, dayandı. Əllə dartılıb cırılan parça səsi gəldi qulaqlarına; yal-birçəyini qan götürüb getdi; ayaqları boyu şorabalanıb tökülürdü. Çox keçmədi qan kəsdi və titrətmə tutdu atı; sanki çiyinlərindən yapışıb, aşağı basdılar. Ayaqları bədənini saxlaya bilmədi; diz

üstə çökdü. Çənəsini torpağa dirəyib, gözlərini yumdu.

Başını səsə qaldıranda, gördü tövlənin qapısı ağzında basdırıqdı. Örüşdən qayıdan ayğırlar, dayçalar bir-birnə qarışıb – kişnərti dünya-aləmi basıb. Bir azdan qapının ağzına sıxnaşan at ilxısı təpik-təpiyə qalxdı.

Atabaxanın çığırığı gəldi qulaqlarına:

–Çər dəymişlər, tövləyə niyə girmirsiniz?!

Qırmanc şaqqıltısı, at kişnərtisi, tappıltı bir-birinə qarışdı.

Ağ at bir də gördü atabaxan ona tərəf qaçır; çatar-çatmaz dayandı. Dəli kimi qəfil dönüb, bu dəfə də bağıra-bağıra qapıya sarı qaçdı:

– Ay ca-a-ma-at, bura gəlin!

Bir azdan tövlənin qapısı ağzında onlarla insan cəm oldu:

–Nədi?!

–Ağ at Şeytan olub?!

–Şeytan nədi?!

–Ağ at qanad çıxarıb!

–Ola bilməz!

–Baxın!

–Doğrudan aaa...

–Ovçu Şəmini çağırın, gəlib güllələsin.

Seyid Şəmi tövləyə girdi:

–Nə olub?

–Görmürsən, Ağ at Şeytana dönüb?!

–Şeytana niyə, atdı da, qanad çıxardıb!

–Görəcək işdi!

–Görəcək niyə, yəqin anası bunu yatan yerdə doğub. Eşitməmisiniz, at deyir, ayaqüstə doğulanda yerə dəyməsəm, qanadım çıxar?!

–Qanad çıxaran atdan bizə xeyir gəlməz!

–Neyləyim, deyirsiniz?!

–Şeytanı saxlayıb, neyləyəcəyik ki!

–Vurum?

–Vur!

–Mən namərdlik eləyə bilmərəm!

–Nə namərdlik?!

–Başımın tükü sanı ov eləmişəm, duran heyvana güllə atdığım yadıma gəlmir!

–A kişi, bu, ov deyil, bu, şeytandı!

–Onu sübut eləmək lazımdı.

Adamlar bir-birinə baxdı. Seyid Şəmi tüfəngi çiyninə aşırdı. Məmiş yerindən tərpəndi:

–Amerika özünü ha cırıb-dağıtsın, vallah, bizim işimiz russuz keçməyəcək! Gedim, Yeqoru çağırım.

Yeqor arvadı Ninayla gəldi.

–Şəmi, bilməzdim qorxaq olduğunu?!

–Yeqor, ürəyim qarğa yumurtası boydadı!

–Tüfəngi bəri elə!

–Mən tüfəngimi günaha batıra bilmərəm!

–Yemək-içməyimi hazırlayın, gəlirəm! – Yeqor tələsik evə gedib, qoşalüləylə qayıtdı.

–Bir az dala çəkilin!

Adamlar tövlənin qapısına tərəf sıxnaşdılar.

–At hanı?! – Yeqor gözlərini qıyıb, soruşdu.

–Doğrudan a... – adamlar bağırışdı.

Bir uşaq çığırdı:

–Odur ey, durub pəncərənin altında!

–Buy, bu ki, kiçilib lap dayça boyda qalıb! Amma qanadları böyükdü.

–Ay Yeqor, nə gözləyirsən?!

–Yüzü!

–Vur, yüz də səni gözləyir, beşyüz də!

–Məmiş!

–Hə?

–Nə durmusan?!

Bayaq Məmiş badəni Yeqora uzatdı:

–Köpəyoğlu, vurmasan, iki yarım alacam səndən!

Yeqor arağı başına çəkib, tüfəngi üzünə qaldırdı. Bayaq Ağ at qanad çalıb, qalxıb durdu pəncərənin ağzında.

–Tətiyi çək!

Yeqor tüfəngi yanına salıb, diqqətlə ata baxdı. Sonra geri çevrildi:

–Məmiş, burdasan?!

–Harda olum, deyirsən?!

–Yüz də süz!

–Köpəyoğlu, qorxursan, deyəsən?!

–Tüfəngin qundağı sinəmdə durmur! – Yeqor stəkanı boşaldıb, yenidən tüfəngi üzünə qaldırdı. –Hayıf! Elə yarış olmazdı, qızıl medalla qayıtmasın!

Güllə açılan kimi pəncərə çilik-çilik olub töküldü. Atın quyruğu qopub tappadan yerə düşdü.

–Uçdu! Uçdu! – adamlar bağırıb çölə qaçdı.

At ağ ley kimi dik göyə qalxırdı. Yeqor iki patron da boşaltdı...

# Tülkü ilə atışma

Yayın istisində, qışın soyuğunda toyuq-cücəmizi hinə salıb-eləmərik. “Hin” deyəndə bir az böyük çıxır, əslinə baxsan, heç hinimiz də yoxdu. Adamlar soruşanda, niyə belə eləyirsən, deyirəm, bu toyuq-cücənin əsli-nəcabəti hində yaşayıb məgər? Kəklikdən, turacdan nəyi artıqdı bunların? Qudurtmuşuq, vallah!

Nə isə olan olub, keçən keçib. Yatmışdım, gecənin bir aləmi elə bil vurub ayıltdılar məni. Başımı qaldırıb, çölə baxdım. Baxmağımla toyuq-cücənin bağırmağı bir oldu. O yana boylandım, bu yana boylandım, gözümə bir şey dəymədi. Amma toyuqlar çığırışmağındaydı. Elə bil ətini kəsirdilər.  Birdən gözümə işıq düşdü. Adə... hasara tərəf çevrildim. Nə görsəm yaxşıdı, bir tülkü çömbəlib oturub hasarın üstündə, gözlərini zilləyib toyuqlara. Toyuqlar da onun gözünün işığına dözmür...

Əl atdım tüfəngə... part... bayaq tülkü hasarın üstündən aşıb düşdü. Yüyürdüm ki, birini də ilişdirəm qabırğasına, gördüm, tülkü nə gəzir.

Ay namərd, qaçıb aradan çıxmışdı... Bir azdan küçədə itlər bir-birinə qarışdı. Deməli, tülkünü qovurdular. Bəlkə də indi tutub, cırıq-cırıq eləyiblər.

Toyuqlar sakitləşdi. Evə qayıdıb, başımı atıb yatdım.

Səhəri gün tezdən güllə səsindən pəncərənin şaq-şaq şaqqıldadığını eşitdim. Adə... gördüm tülkü dal ayaqları üstə hasarın belində dayanıb, əlində avtomat, pəncərəmi atəşə tutub...

–Höh! – Eləyib gözlərimi açdım. Boynum-boğazım tər içindəydi. Hasara baxdım; bir bülbül başını çiynınə qoyub, oxuyurdu.

## KİTABIN İÇİNDƏKİLƏR

Ədəbi zəhmətinə Avropada dəyər verilən yazıçı (Ş.Nasir) ................................3

**ŞEİRLƏR**

Vətən........................................................12
Vətən – yəni biz .........................................13
Bəs nədən...................................................14
Çörək..........................................................15
Biz ..............................................................16
Üç ...............................................................17
Qar - Süd.....................................................18
Mübarək......................................................19
Ay qış .........................................................20
Ay qar..........................................................21
Zooparkda ..................................................22
Abdul əmi....................................................23
Ay baba ......................................................24
Xoş gördük..................................................25
Kefdi babam................................................26
Küçüklər......................................................27
Qarınqulu ...................................................28
Yalan ..........................................................29
Bulu-bulu-bulud..........................................30
Köpək gəzir ayaqyalın ...............................31
Döyüşçü .....................................................33
Məni yıxana bir bax ...................................35
Bostan oğruları............................................37
Ovçu............................................................39

**HEKAYƏLƏR**
Bulud....................................................42
Leyləyin intiqamı......................................45
"Aclıq" dərsi ..........................................55
Toxluq ....................................................60
Alim .......................................................64
Bağban ...................................................69
Alça........................................................71
Sərçə.......................................................74
İlanbalığı ................................................80

**NAĞILLAR**
Ağıllı Mismar,
Əsir Bülbül və Kasıb Qarı............................82
Necə oldu ki,
Sarımsaq öz İyini özündən qovdu.................90
İt və Eşşək...............................................97
Fal .........................................................104
Necə oldu ki, "A" dönüb "Ana" oldu .........108
Şeytan....................................................117
Tülkü ilə atışma.......................................122

# Yuxarıyaşlı məktəblilər üçün

Ofset üzrə çapçı
**Azər**

**Çapa imzalanıb**
13.03.2015
**Formatı** 84 x 108 1/32
Sayı 1000
**Hesab-nəşr vərəqi** 8,0
Bakı – 1021, Badamdar qəs.
Seyran Məmmədov küç. 6, mən. 8
**Tel: 492 92 27. (050) 3162340**

Qəşəm İsabəyli
**Leyləyin intiqamı**
(şeirlər, hekayələr, nağıllar)
**Bakı – Şirvannəşr – 2015**

**Əzizi oxucu!**
Bu kitab haqqında fikir və
təkliflərinizi aşağıdakı ünvana
bildirməyinizi xahiş edirik.

Bakı – 1021, Badamdar qəs.
Seyran Məmmədov küç. 6, mən. 8
**Tel: 492 92 27. (050) 3162340**

